Scientific News of Azerbaijan State Academy of Physical Education and Sport
Sport Science Journal
vol. 5, № 4, 2023, pp. 120-123.

# AZƏRBAYCAN RESPUBLİKASININ QONŞU DÖVLƏTLƏR İLƏ HƏRBİ ƏMƏKDAŞLIĞI

**S.A. Bağırov[1a], A.Ə. Bədirxanov[1b]**

[1]*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*
[a] sadyar.baghirov@sport.edu.az, orcid.org/0009-0005-8911-4155
[b] adil.badirkhanov@sport.edu.az, orcid.org/0009-0009-8369-6691

**Nəşr tarixi**
Qəbul edilib: 11 oktyabr 2023
Dərc olunub: 28 dekabr 2023
© 2021 ADBTİA Bütün hüquqlar qorunur

**Annotasiya.** Hər bir ölkənin təhlükəsizliyi və inkişaf göstəricilərini həm də qonşuları ilə münasibətləri müəyyən edir. Hansı ölkə ki, qonşularla siyasi konfliktlər yaşamır, isti əlaqələrə malikdir və əməkdaşlıq edir, həmin ölkə təhlükəsizliyi və davamlı inkişafı üçün əlavə avantaj qazanmış olur. Bu cür əlaqələr regionun da taleyinə təsir edir.Azərbaycanın xarici siyasətində bu prinsip aydın ifadə olunur - qonşularla əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi və şaxələndirilməsi. Qlobal miqyasda etibarlı tərəfdaş kimi nüfuz qazanan Azərbaycan regionun lokomotivi olaraq yüksək reputasiyaya sahibdir. Rəsmi Bakı, təbii olaraq, işğalçı Ermənistan istisna olmaqla, yerləşdiyi regionun bütün ölkələri ilə müxtəlif platformalarda iki və çoxtərəfli əməkdaşlıq əlaqələrinə malikdir. Bu, özünü siyasi münasibətlərdə də, xarici ticarət dövriyyəsində də göstərir.

**Açar sözlər:** *Azərbaycan, qonşu dövlətlər, münasibətlər, hərbi əməkdaşlıq, ikitərəfli əlaqələr, çoxtərəfli əlaqələr, əməkdaşlıq dinamikası.*

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının xarici siyasətinin prioritet istiqamətlərindən biri ilk olaraq qonşu dövlətlər ilə münasibətlərin qurulması oldu. 1993-cü ildə Azərbaycanda ikinci dəfə hakimiyyətə gələn Ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərindən biri də məhz qonşu dövlətlər ilə münasibətlərin qurulması məsələsi idi. Çünki müstəqilliyin ilk illəri müddətində Azərbaycan demək olar ki, bütün qonşu dövlətlər ilə çox gərgin münasibət şəraitində yaşadığı tarixi faktlardan biridir.

2003-cü ildən başlayaraq xarici siyasət sahəsində Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş prinsiplərə sadiq qalan ölkə başçısı İlham Əliyev qonşu dövlətlər ilə əməkdaşlığa böyük əhəmiyyət verərək bu münasibətlərin daha da yüksəlməsinə çalışır. Azərbaycan bu gün qonşu dövlətlər ilə dinamik inkişaf edən və ildən-ilə yüksələn əməkdaşlıq həyata keçirir.

Hər bir ölkənin təhlükəsizliyi və inkişaf göstəricilərini həm də qonşuları ilə münasibətləri müəyyən edir. Hansı ölkə ki, qonşularla siyasi konfliktlər yaşamır, isti əlaqələrə malikdir və əməkdaşlıq edir, həmin ölkə təhlükəsizliyi və davamlı inkişafı üçün əlavə avantaj qazanmış olur. Bu cür əlaqələr regionun da taleyinə təsir edir.

Azərbaycanın xarici siyasətində bu prinsip aydın ifadə olunur - qonşularla əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi və şaxələndirilməsi. Qlobal miqyasda etibarlı tərəfdaş kimi nüfuz qazanan Azərbaycan regionun lokomotivi olaraq yüksək reputasiyaya sahibdir. Rəsmi Bakı, təbii olaraq, işğalçı Ermənistan istisna olmaqla, yerləşdiyi regionun bütün ölkələri ilə müxtəlif platformalarda iki və çoxtərəfli əməkdaşlıq əlaqələrinə malikdir. Bu, özünü siyasi münasibətlərdə də, xarici ticarət dövriyyəsində də göstərir.

2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə Prezident İlham Əliyev bu məqama xüsusi olaraq diqqət ayırdı: “Azərbaycan dünya müstəvisində çox etibarlı tərəfdaş kimi tanınır və bizim beynəlxalq gücümüz də ildən-ilə artır. İl ərzində ölkəmizə 40-dan çox dövlət və hökumət başçısı səfər etmişdir, həm ikitərəfli formatda, həm də beynəlxalq tədbirlərdə iştirak üçün. Eyni zamanda, qonşu dövlətlərin

dövlət və hökumət başçıları ilə çoxsaylı görüşlərim olubdur və bu görüşlər çox önəmlidir. Çünki qonşularla münasibətlərin qurulması, hesab edirəm ki, hər bir ölkə üçün prioritet olmalıdır. Azərbaycanın öz qonşuları ilə çox möhkəm və qarşılıqlı maraqlar əsasında formalaşmış əlaqələri mövcuddur. Bu əlaqələr keçən il daha da möhkəmləndi”.

Qonşu ölkələrlə əlaqələr strateji siyasi əhəmiyyət kəsb etməklə yanaşı, iqtisadi baxımdan da vacibdir. İxrac, xüsusilə qeyri-neft sahəsində ixrac potensialının tam olaraq realizə olunmasını prioritet kimi müəyyən etmiş Azərbaycanın ixrac payında qonşu ölkələr mühüm paya sahibidir. Qeyri-neft ixracında 14 faizlik artım məhz bunun ifadəsidir.

Azərbaycanın qonşu dövlətlər ilə münasibətlərində digər sahələrlə yanaşı hərbi əməkdaşlıq da mühüm yer tutur. Hərbi əlaqələr həm ikitərəfli, həm çoxtərəfli, həm də regional və beynəlxalq təşkilatlar çərçivəsində inkişaf etməkdədir. Üçtərəfli əməkdaşlıq əlaqələrinə misal olaraq Azərbaycan-Gürcüstan-Türkiyə hərbi əməkdaşlığını, beynəlxalq təşkilatlar çərçivəsində isə Azərbaycanın Türkiyə ilə həm NATO, həm də BMT (sülhməramlı əməliyyatlarda iştirak), Rusiya və Qazaxıstanla MDB Müdafiə Nazirləri Şurası çərçivəsində və s. əlaqələrini göstərə bilərik. Azərbaycana qonşu olan Xəzəryanı ölkələrlə hərbi sahədə əməkdaşlığa yeni impuls verən hadisələrdən biri də 2018-ci ilin avqust ayında “Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya”nın imzalanması oldu. Belə ki, Konvensiyadan irəli gələn digər mühüm sənədlərin (Xəzər dənizində insidentlərin qarşısının alınması haqqında Saziş, Xəzər dənizində mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında və sərhəd xidməti idarələrinin əməkdaşlığı və qarşılıqlı əlaqələri haqqında Protokollar) Xəzəryanı ölkələrin müdafiə və daxili işlər nazirləri və sərhəd xidməti rəisləri tərəfindən imzalanması bu ölkələrin müvafiq qurumları arasında əməkdaşlıq əlaqələrinin genişlənməsini zəruri edir [1, 3].

Azərbaycanın qonşu dövlətlərlə mövcud olan hərbi əməkdaşlıq əlaqələrinin inkişaf dinamikasına görə Azərbaycan-Türkiyə hərbi münasibətləri ilk pillədə yer alır. 44 günlük Vətən müharibəsi zamanı Türkiyə Respublikasının Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək, Bakıda keçirilən Zəfər paradı zamanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirak etməsi, 2021-ci ilin iyun ayının 15-də iki ölkə arasında Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək səviyyədə olduğunu bir daha nümayiş etdirdi. Şuşa Bəyannaməsinin imzalanması ilə iki ölkə arasında hərbi müttəfiqlik rəsmiləşdirildi. Bu gün Azərbaycan Türkiyə ilə hərbi, hərbi-texniki, hərbi təhsil, hərbi tibb və digər sahələrdə uğurla əməkdaşlıq edir. 2013-cü ildən başlayaraq iki ölkənin müxtəlif qoşun növləri arasında həyata keçirilən birgə hərbi təlimlərin sayı ildən-ilə artmaqda davam edir. Təkcə 2021-ci ildə həm Türkiyədə, həm də Azərbaycanda 10-na yaxın birgə təlim keçirilmişdir. Bura “TurAz Şahini”, “Sarsılmaz qardaşlıq”, “Mustafa Kamal Atatürk”, “Anadolu Qartalı” və s. təlimlər aiddir. Azərbaycan-Türkiyə birgə təlimləri artıq işğaldan azad edilmiş ərazilərdə də keçirilir. Həmin ərazilərin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsində də iki dövlətin hərbi istehkamçıları birgə fəaliyyət göstərir. Əməliyyatlara Türkiyədən gətirilən xüsusi texnikalar da cəlb olunmuşdur. 2020-ci ilin noyabr ayının 10-da Türkiyə Respublikasının xarici işlər nazirini, müdafiə nazirini və Milli Kəşfiyyat İdarəsinin rəisini qəbul edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: “Bütün bu 44 gün ərzində qardaş Türkiyənin dəstəyini biz hər an hiss edirdik, bütün Azərbaycan xalqı hiss edirdi...Bu, bizim müştərək qələbəmizdir, Türkiyə-Azərbaycan birliyinin təsdiqidir. Bu gün bu birlik tarixdə bəlkə də ən yüksək səviyyədədir” [1, 3].

Azərbaycan ən böyük region qonşularından olan Rusiya Federasiyası ilə də hərbi, hərbi-texniki sahədə geniş əməkdaşlıq əlaqələri vardır. Bu əlaqələr inkişaf edən xətlə inkişaf edir. Bu gün Rusiya Azərbaycana silah-sursat, hərbi texnika idxal edən ölkələr sırasında birinci yerdə durur. Rusiyadan texnika alınması çərçivəsində iki ölkə arasında imzalanmış kontraktların məbləği 5 milyard dollardır. Ümumilikdə, iki ölkə arasında hərbi-texniki əməkdaşlığa dair 40-dan çox müqavilə və saziş bağlanmışdır. 2006-cı ilin may ayından etibarən hərbi-texniki əməkdaşlıq üzrə ikitərəfli

hökumətlərarası komissiya fəaliyyət göstərir [2]. Rusiya Federasiyasından alınan hərbi texnika və silahları istismar edə biləcək savadlı mütəxəssislərin hazırlanması baxımından Azərbaycan üçün bu ölkə ilə hərbi təhsil sahəsində əməkdaşlıqda böyük əhəmiyyət kəsb edir. İki ölkə arasında hərbi idman sahəsində də əməkdaşlıq uğurla inkişaf etməkdə davam edir. 2017-ci ildən başlayaraq iki ölkənin Hərbi Dəniz Qüvvələri arasında Rusiya Federasiyası Müdafiə Nazirliyinin təşəbbüsü ilə 2015-ci ildə bünövrəsi qoyulan Beynəlxalq Ordu Oyunları çərçivəsində "Dəniz Kuboku" müsabiqəsi keçirilir. Azərbaycan Respublikası və Rusiya Federasiyası sərhəd xidmətləri arasında da qarşılıqlı əlaqələr yüksəlməkdədir [2, 3].

## ƏDƏBİYYAT

1. *Prezident İlham Əliyev Türkiyənin xarici işlər, milli müdafiə nazirlərini və Milli Kəşfiyyat İdarəsinin rəisini qəbul edib:* [Elektron resurs]. 10.11.2020. URL: https://mod.gov.az/az/news/prezident-ilham-eliyev-turkiyenin-xarici-isler-millimudafie nazirlerini-ve-milli-kesfiyyat-idaresinin-reisini-qebul-edi-33797.html.
2. *Какое оружие Азербайджан покупал у России.* Экспорт российского вооружения: [Электронный ресурс]. 25.09.2018. URL: https:// tass.ru/armiya-i opk/5598195.
3. https://mod.gov.az//images/pdf/9a016be8667febf98fe7026f347118b0.pdf
4. *The second Karabakh war as a new generation warfare.* The proceedings of the international scientific-practical conference dedicated to the anniversary of the victory achieved in the 44 day patriotic war. October 21–22, 2021 Baku, Azerbaijan..

# ВОЕННОЕ СОТРУДНИЧЕСТВО АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ С СОСЕДНИМИ СТРАНАМИ

**С.А. Багров[1a], А.А. Бадирханов[1b]**

[1]*Азербайджанская Государственная Академия Физической Культуры и Спорта*
[a] sadyar.baghirov@sport.edu.az, orcid.org/0009-0005-8911-4155
[b] adil.badirkhanov@sport.edu.az, orcid.org/0009-0009-8369-6691

**Аннотация.** Показатели безопасности и развития каждой страны также определяются отношениями с ее соседями. Какая страна не испытывает политических конфликтов со своими соседями, имеет теплые отношения и сотрудничает, та страна получает дополнительное преимущество для своей безопасности и устойчивого развития. Подобные отношения влияют и на судьбу региона. Этот принцип четко выражен во внешней политике Азербайджана – укреплении и диверсификации отношений сотрудничества с соседями. Завоевав репутацию надежного партнера в мировом масштабе, Азербайджан имеет высокую репутацию локомотива региона. Официальный Баку, конечно, имеет двусторонние и многосторонние отношения сотрудничества на различных площадках со всеми странами региона, где он находится, за исключением оккупирующей Армении. Это проявляется в политических отношениях и внешней торговле.

**Ключевые слова:** *Азербайджан, соседние государства, отношения, военное сотрудничество, двусторонние отношения, многосторонние отношения, динамика сотрудничества.*

# MILITARY COOPERATION OF THE REPUBLIC OF AZERBAIJAN WITH NEIGHBORING COUNTRIES

**S.A. Bagirov[1a], A.A. Badirkhanov[1b]**

[1] *Azerbaijan State Academy of Physical Education and Sport*
[a] sadyar.baghirov@sport.edu.az, orcid.org/0009-0005-8911-4155
[b] adil.badirkhanov@sport.edu.az, orcid.org/0009-0009-8369-6691

**Annotation.** The security and development indicators of each country are also determined by the relations with its neighbors. Which country does not experience political conflicts with its neighbors, has warm relations and cooperates, that country gains an additional advantage for its security and sustainable development. Such relations affect the fate of the region as well. This principle is clearly expressed in Azerbaijan's foreign policy - strengthening and diversification of cooperative relations with neighbors. Having gained reputation as a reliable partner on a global scale, Azerbaijan has a high reputation as a locomotive of the region. Official Baku, of course, has bilateral and multilateral cooperation relations on various platforms with all countries of the region where it is located, except for the occupying Armenia. This shows itself in political relations and foreign trade.

**Keywords:** *Azerbaijan, neighboring states, relations, military cooperation, bilateral relations, multilateral relations, dynamics of cooperation.*

## TƏLƏBLƏR

Dərc olunan məqalə redaksiyaya elektron formada təqdim olunmalıdır.

1. Məqalədə müəllif(lər)in adı, soyadı, ata adı, elmi dərəcələri, işlədiyi müəssisə(lər), müəllif(lər)in elektron poçt ünvanları, ORCİD kodları göstərilməlidir.
2. Məqalələrin mətnləri Times New Roman-12 şrifti ilə (məsələn, Azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası, ingilis dilində ingilis əlifbası ilə) 1 intervalla, 4-8 səhifə həcmində çap olunmalıdır.
3. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq, müəllif(lər)in gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.
4. Məqalənin mövzusu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla (məsələn, [1] və ya [1, s.55] kimi işarə olunmalı) nömrələnməlidir.
5. Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafik, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrdə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbirlərin matriallarına və ya tezislərinə istinad edərkən məqalənin məruzənin və ya tezisin adı göstərilməlidir.
6. Məqalənin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir (ən azı 5, 6 olmaqla).
7. Dərc olunduğu dildən əlavə başqa iki dildə məqalənin xülasəsi verilməlidir. Məqalənin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır. Məqalədə müəllifin və ya müəlliflərin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. xülasədə yığcam şəkildə (180-200 söz) öz əksini tapmalıdır. Xülasələr elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır. Hər bir xülasədə məqalənin adı, müəllifin və ya müəlliflərin tam adı, elmi dərəcələri və işlədiyi müəssisə göstərilməlidir.
8. Açar sözlər üç dildə (məqalənin və xülasələrin yazıldığı dillərdə 6-8 söz olmaqla) verilməlidir.
9. Məqalədə başqalarının sözlərindən və ya fikirlərindən istifadə edilirsə, buna müvafiq olaraq istinad edilməsi tələb olunur.
10. Jurnalda dərc edilən məqalələr plagiat baxımından ciddi yoxlamadan keçirilir və plagiat müəyyən edildikdə, həmin məqalələr qəbul edilmir.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman**

**Akademiyasında çap olunmuşdur.**

**Çapa imzalanmış mart, 2023**

**Sifariş № 15, Kağız format 25**

**Nəşr şərti – 15,5, Sayı 100**

**Az-1072, Bakı, Fətəli Xan Xoyski prospekti, 98**